**_Ueda AKİNARİ_**
(1734-1809) – Yaponiya

# Bir sevən qadının həyat hekayəsi

Novella

**(əvvəli ötən şənbə sayımızda)**

Kansyonun idarəçiliyinin ikinci ilində mərkəzi əyalətlərdən biri sayılan Kavatidə qiyam qalxdı. Xatakeyamadan olan tayfalar arasında qəbilə davası ölüm-dirim savaşına döndü. Paytaxt ətrafı kənd və qəsəbələrdə də qarğaşalıq, hərc-mərclik başladı. Yazda dəhşətli qırğın oldu, paytaxtın məhəllə və dalanlarında ölənlərin cəsədləri günlərlə yerdə qalırdı, insanlar ümidsizlik içində çox kədərli həyat yaşayırdı.

”İnana bilmirəm, bu, mənəmmi? - bir gün özünü qınadı Kasusiro. - Necə oldu ki, mən bu qədər ləyaqət və simamı itirdim? Bu uzaq mahalda tanımadığım adamların mərhəmətinə sığınıb illərlə yaşamaqla nəyə ümid etdim? Ötən uzun illərdə sinəmdə ürəyin yerinə sanki hər şeyi yadırğama tarlası göyərdi və mən bir dəfə də olsun doğma kəndimi, qoyub gəldiyim gözəl qadınımı da xatırlamadım. Miyaqi artıq həyatda olmasa da belə, dünyasını dəyişsə də belə - fərqi yoxdu, gərək onun əbədi yuxuya getdiyi yeri tapım, məzarını görüm...” Kasusiro bu fikrini dostlarına da bildirəndən sonra yağışlı bir yaz günü yola çıxdı və yolçuluğunun onuncu günü doğma yurd yerlərinə çatdı.

Artıq günəş görünmürdü, qaranlıq düşmüşdü. İndi bir az da yerə yaxın ağırlaşan qara, tutqun buludlar yağışdan xəbər verirdi. Bu yerlərə yaxşı bələd olan Kasusiro qaranlıqda azmamaq üçün seyrək yay otu göyərən biçənəkdən keçdi. Amma çayın kənarına çatanda köhnə körpünün uçduğunu, suyun gur axınına yatdığını gördü. Ətrafda kimsə görünmürdü, qəhəl və ağıllarda nə mal-qara, nə də davar vardı, əkin yerləri alağın, qanqalın içindəydi, yol-riz kol-kos ağzındaydı. Əvvəlki evlər də gözə dəymirdi. Tək-tək salamat qalan tikililərdə deyəsən yaşayan vardı, amma bu tikililərdən heç biri o vaxtlar onun gördüyü evlərə bənzəmirdi. Hara gedəcəyini bilməyən Kasusiro çaşqınlıq içində dayanıb durdu. Və birdən özündən iyirmi addım aralıda buludların dağınıq yerlərindən ayın, ulduzun işığında görünən gövdəsini ildırım vurmuş hündür şam ağacını gördü. Bu, onun evinin qabağında bitib böyüyən şam ağacı idi və o, bir anda ürəklənib ağaca sarı getdi. Evi əvvəlki kimiydi. Ona elə gəldi ki, bu evdə kimsə yaşayır: budaqların arasından baxanda pəncərədə işıq şölələri titrəyirdi. Həyəcanlanan Kasusironun ürəyi çırpındı: ”Görən odumu, yoxsa yad, gəlmə?”. Və o, öskürdü. ”Kimsən?” - qapının arxasından səs gəldi. Şübhəsiz, bu səs onun qadınının səsi idi, baxmayaraq ki, yaşlı adamın səsinə oxşayırdı. Bəlkə xəyalıma gəlir? Özünə gəlməyə çalışıb dedi: ”Bu, mənəm, mən qayıtdım! Doğrudanmı sən əvvəllər olduğu kimi yenə də bu evdə yaşayırsan? Səni yenidən görəcəyimə inanmırdım!” Miyaqi Kasusironun gözünə xəyal kimi görünürdü: üzü tutqun, gözləri quyunun dibində, dağınıq saçları çiynində, pərişan halda. Kasusiro onu çətinliklə tanıya bildi. Ərini görən Miyaqi hönkürmədən, sakitcə ağlayırdı.

Ürəyi kövrələn Kasusiro xeyli müddət bir söz demədən susdu və sonra dedi: ”Sənin sağ və salamat olduğunu bilsəydim qürbətdə bu qədər qalardımmı? Gör mənim başıma nələr gəldi. Həmin il geri qayıtmağa hazırlaşırdım ki, paytaxtda Kamakurda baş verən qiyam haqqında xəbər yayıldı. Deyirdilər ki, canişinin qoşunun darmadağın ediblər, özü də Sosuya tərəf geri çəkilib və Uesuqi onu qarabaqara izləyir. Ertəsi gün Sasabe ilə vidalaşıb paytaxtı tərk etdim. Bu, avqustun əvvəllərində oldu. Kiso dağlarında soyğunçuların hücumuna məruz qaldım, pullarımı və yükümü əlimdən alsalar da özümə dəymədilər. Amma ətrafda yaşayan kəndlilərdən öyrəndim ki, şərqə tərəf həm dağlarda, həm də dəniz sahili yollarda gözətçi məntəqələri qoyulub və Uesuqinin qərargahına paytaxtdan elçi göndərilib ki, canişini məhv etsinlər. Ona görə də hər tərəf yanğın içindədir, qaralıb külə dönən bütün torpaqlar qoşunların tapdağı altındadır. Artıq sənin həyatda olmadığını düşündüm və geriyə, paytaxta döndüm. Xeyirxah insanlar mənə sığınacaq verdilər və mən yeddi ilə qədər orada yaşadım. Amma axırda darıxdım və qərara gəldim ki, kəndə qayıdım, bir daha birlikdə yaşadığımız doğma yerləri görüm. Mən gözlərimə inana bilmirəm. Röyamda belə inanmazdım ki, sən sağ-salamatsan. Ola bilsin ki, sən mənim yalnız xəyalıma gəlirsən?..” O, bunu deyir, tələm-tələsik də eyni fikri təkrarlayırdı.

Miyaqi göz yaşını saxlayıb dedi: ”Sizdən ayrılandan sonra payızı gözlədim, lakin qəfil hər şey dəyişdi, dünya qarışdı, dəhşətli günlər başladı, qonşular evlərini atıb dənizin o sahilinə üz tutdular, bəziləri də meşələrdə gizləndi. Kənddə qalanlar abır-həyalarını itirdilər, tək qaldığımı görüb hiss və duyğularımla oynamağa can atdılar, məni təngə gətirdilər. Çox acı günlər yaşadım, şəhvətpərəstlərin əlində oyuncaq olmamaq üçün onlara qəzəbimi göstərib pərən-pərən saldım. Artıq gecələr göyün üzündə görünən Ağ Yol payızın gəldiyini deyirdi, amma sizdən bir xəbər yox idi. Mən qışı da yola verib yazı qarşıladım, lakin sizdən yenə də bir soraq verən olmadı. Paytaxta gedib sizi axtarmaq barədə düşündüm, amma kişilərin keçib gedə bilmədiyi gözətçi məntəqələrindən yayınmaq bir qadının hünəriydimi? Və mən ümidsiz, tək-tənha bu evdə qaldım, ətrafda yalnız tülkülər, çaqqallar gəzir, dolaşır, bayquşlar ulayırdı. İndi yenidən birlikdəyik, mən çox şadam, sizə olan incikliyimi də unutdum. Axı mən bu ayrılığa dözməyib bir kimsədən xəbərsiz bu acılar içində ölə bilərdim...”. Və Miyaqi yenidən göz yaşı töküb ağladı. ”Gecə o qədər də uzun deyil, bir azdan səhər açılacaq”, - deyən Kasusiro ona təsəlli verdi, nəvasiş göstərdi və bir çimir yuxu almaq üçün yatağa uzandılar.

Gecənin ayazında kağız çəkilən pəncərə küləkdə soyuğu saxlamırdı. Buna baxmayaraq çox yorğun düşən Kasusiro bərk yuxuya getdi. Saat beş radələrində göyün üzündə toran sozalanda üşüyən və donan Kasusiro yarıyuxulu vəziyyətdəydi və yorğana daha bərk bürünmək istədi. Barmaqlarının altında nəyinsə xışıldadığını hiss edib oyandı, onun üzünə soyuq şeh damcısı düşdü. Bəlkə yağan yağış evə damır, - deyə fikirləşdi və gözlərini açanda küləyin damı atdığını gördü. Qapılar da taybatay açıq idi, cürüyən bambuk döşəmənin ağaran çat və yarıqlarında seyrək alaq otları görünürdü. Otların üstündən şeh damırdı, palı-paltarı da islanmışdı. Yabanı sarmaşıq divara sarına-sarına yuxarı qalxırdı. Həyətdəki sirkan adama boy vermirdi və yayın ən qızmar vaxtı olsa da hər yanda payızın gəlişindən bir nişanə vardı.

Miyaqi harasa yoxa çıxmışdı. ”Yəqin gecə olanlar eləcə bir xəyal idi...” - Kasusiro fikirləşdi. Lakin bu ev heç şübhə yox ki, onun öz eviydi, amma kimsəsiz olması adama çox ağır gəlirdi. Evin otaqları, həyətdəki tikililər ona doğmaydı və bir müddət çaşan, qarıxan kimi ətrafa göz gəzdirdi. Sonra fikrə gedib əmin oldu ki, Miyaqi artıq həyatda yoxdu, yiyəsiz qalan bu ev də tülkü və porsuqların yuvasına çevrilib: ” Buna görə də bu evdə, həyətdə hər sayaq qulyabanı və kabus gözə görünə bilər. Güman ki, darıxan Miyaqinin ruhu yanıma gəlib. əlbəttə, hər şey paytaxtda düşündüyüm kimi olur”. Hətta, o, ağlaya da bilmədi, həyətə çıxıb bir vaxtlar oxuduğu şeirlərdən misraları xatırladı: ”Bircə mən qaldım həyatda...”. Həyətdə küləyin və yağışın gətirdiyi bir yaba ağzı cör-çöpün altında qalan qəlbi yer gördü, bunun məzar olduğunu anladı. ”Yəqin gecə xəyalən görünən qarabasmalar da bundandır”. - Kədərlənən Kasusiro bir az da qorxuya düşdü. Məzarın üstündə kiminsə onun adına gətirdiyi və artıq quruyan güllər də vardı. Onların arasında qalan sarı kağızda yarıpozuq yazıları gördü. Kasusiro öz qadınının xəttini tanıdı. Orada nə mərhumun adı, nə də tarix vardı, kədərli günlərin ifadəsi olan şeirlərdən başqa...

Gör nələr yaşadım mən,
Ümidim sönmədi heç
Bu sevən ürəyimdə!
Mən son nəfəsimdə də
Səni görmək istədim...

O, yalnız indi anladı ki, artıq heç bir ümidə yer yoxdu və içindən gələn fəryadla məzarı qucaqladı. Bu, onun çox pisinə gəldi, axı, o, hətta Miyaqinin öldüyü vaxtın nə gününü, nə də ayını bilirdi. Bunu kimdənsə öyrənmək olardımı? Bir az toxdayıb özünə gələndə, artıq günəş yüksəkdəydi...

O, yaxınlıqdakı evə tərəf getdi. Güman yeri bildiyi evin sahibini soraqladı. Heç tanımadığı adam ondan şübhəylə soruşdu: ”Siz kimsiniz?”. Kasusiro nəzakətlə təzim edib dedi: ”Mən o evin sahibiydim, yeddi il əvvəl kənddən çıxdım, paytaxta getdim və yalnız dünən gecə qayıtdım. Evim uçulub, dağılıb, indi orda yaşayan da yoxdu. Mən orda məzar gördüm. Yəqin ki, arvadım ölüb. Məni kədərləndirən oduku onun nə vaxt öldüyünü belə bilmirəm. əgər siz bilirsinizsə, mənə də deyin”.

**(ardı növbəti şənbə sayımızda)**

Çevirəni:
**_Şükür ŞƏNOL_**

